# Şəhid Fuad Qubadlı - sonuncu döyüş yeri Xocavənd oldu...

**44 günlük haqq savaşımızda 16 yanvar 1993-cü ildə Cəlilabad rayon, Komanlı kəndində anadan olmuş Fuad Cahangir oğlu Qubadlı sinəsini Vətənimizə sipər edib son nəfəsinə qədər yağı ilə döyüşüb. O, nəsillərə nümunə ola biləcək qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalıb.**

Beləcə, Fuad Vətəni, torpağı üçün canından keçməklə milyonların ürəyində özünə əbədi məkan qurub. İndi kiçik də, böyük də Fuad Qubadlını Azərbaycanın, eləcə dünyanın hər tarixinə qazıl hərflərlə yazılan İkinci Qarabağ müharibəsində qazanılan qələbənin mərdlik və qəhrəmanlıq simvolu kimi xatırlayır. Həmçinin illər keçəcək bu həqiqət daha da aydın görünəcək.

Əsgərliyi cəbhə bölgəsində keçən Fuad Qubadlı xidmət zamanı cəsurluğu, nizam-intizamı ilə seçilib. Komandirlərin verdiyi bütün tapşırıqları dəqiq yerinə yetirib. Onun təlimlər zamanı göstərdiyi döyüş fəallığı zabitlərin diqqətini daha çox cəlb edib. Öz doğma Vətənini göz-bəbəyi kimi qorumaqla bərabər, yağıya qarşı döyüşə hazırlaşıb. Əsgər yoldaşlarına da deyib ki, erməni dığaların Qarabağımıza təcavüzü məni çox narahat edir.



Əgər müharibə başlansa, dığalara qan qusdurmağa birincilər sırasında gedəcəyəm. Lazım gəlsə canımı, qanımı belə Qarabağımızın azadlığına fəda edəcəyəm. Şəhid qanı axmayan torpaqdan Vətən olmaz. Mənliyi, kimliyi bütün millətlərə bəli olan bir xalqın torpaqları düşmən tapdağında qalmamalıdır. Bu Vətənə, torpağa bağlı qəhrəmanlar yetişdirən bir xalqa heç cür yaraşmır. Nəyin bahasına olursa-olsun babəklərin, cavanşirlərin yurdu tezliklə düşmən tapdağından azad olunmalıdır...

Vətənini canından əziz bilən, amalı qurub-yaratmaq olan, gözəl arzularla anamız dünyaya bağlanan Fuad əsgərlik həyatını başa vurub halal zəhmətdən yapışıb. Harada olubsa yalnız xeyirxah əməllərə can atıb. Mənəvi yetkinliyi, ağıllı sözləri, gördükləri gərəkli olub, cəmiyyətə fayda verib. Məhz buna görə də Fuad camaat tərəfindən əsl övlad məhəbbəti ilə sevilib, hər yerdə ona dərin ehtiram göstərilib. Doğma Azərbaycanın hər guşəsini özünə doğma bilən Fuad düşməndən alacağı öcə də hazır durub. Necə deyərlər, Qarabağımızın azadlığı uğrunda döyüş əməliyyatlarına qoşulması üçün Ali Baş Komandanın əmrini səbirsizliklə gözləyib.

Fuad Qubadlı 2020-ci ilin sentyabr ayın 27-də erməni silahlı birləşmələrinin atəşkəs rejimini pozaraq cəbhə boyu mövqelərimizə hərbi təcavüzü zamanı Vətənin harayına birincilər sırasında gedib. Onun döyüş yolu Qarabağımızın ən qaynar bölgələrindən başlanıb. İlk gündən igidliklə vuruşaraq, öz minomyot atanla dığalara qan qusdurub. Vətənə, torpağa olan məhəbbəti onu neçə-neçə ağır döyüşlərin qalibi edib. Müharibə meydanında düşmənə endirdiyi sarsıdıcı zərbələri onunla çiyin-çiyinə vuruşan yoldaşlarını qələbə doğru aparıb.

Qəlbi düşmən tapdağında qalan torpaqları azad etmək istəyi ilə alışıb-yanan Fuad həmişə öndə gedib, qartal tək yağının üstünə şığıyıb. Komandir olduğu dəstəsi Xocavənd, Hadrut, Şuşa istiqamətində aparılan qanlı müharibədə xüsusi rəşadət göstərib, erməni faşistlərinin çoxlu sayda texnika və canlı qüvvəsini məhv edib. Sonuncu döyüş yeri Xocavəndin ətrafı olub. O, 2020-ci il noyabrın 8-də ağır ölüm-dirim savaşında düşmən gülləsinə tuş gələrək Vətən üçün döyünən ürəyi əbədi dayanıb . Fuad Qubadlı ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin alınmasına görə", "Cəsur döyüşçü" medallar və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

"Torpaq əgər uğrunda ölən varsa, Vətəndir"- deyiblər. Fuad kimi qəhrəman igidlər qan töküb 30 il yağı əsarətində qalan əzəli yurd yerimiz olan Qarabağı azad etdilər.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Bakı xəbər. - 2025- ci il. - № 148, 22avqust. - S.15.